

# Heydər Əliyev və dövlət qadın siyasəti

***Azərbaycan Respublikasında qadın siyasəti ilk növbədə, ulu öndər Heydər Əliyevin xalqın təkidi ilə hakimiyyətə qayıdışından sonra geniş vüsət almışdır. Məhz ümummilli liderin uzaqgörənliyi və qətiyyəti sayəsində 1993-cü ildən qadınların ictimai-siyasi həyata transformasiyası, onların dövlət idarəçiliyində təmsilçiliyi, bütün sahələrdə kişilərlə bərabər hüquqlara malik olması dövlət idarəçiliyi kursunun prioritet istiqamətlərindən birinə çevrilmişdir.***

> ***Azərbaycan qadını tarix boyu öz ağlı, zəkası, namusu, qeyrəti, fədakarlığı, çalışqanlığı, mərdliyi, vətənpərvərliyi və millətinə, torpağına olan hədsiz məhəbbət və gözəlliyi ilə tanınmışdır.***
>
> **Heydər ƏLİYEV**
> **Ümummilli lider**

Xalqımızın hüquq və azadlığını daim qorumuş, onun milli şüurunun formalaşmasında, maariflənməsində böyük xidmətlər göstərmiş Heydər Əliyev Azərbaycanda hakimiyyətinin ilk dönəmində (1969-1982-ci illər) də, qadınlarla bağlı məsələləri daim diqqət mərkəzində saxlamışdır. O vaxtlar da qadın problemləri, qadınların inkişafı, onların irəli çəkilməsi haqqında dünya miqyasında söhbətlər gedirdi. Elə həmin dövrdə Heydər Əliyev qadınlara diqqət və qayğı göstərərək, onları bilik və bacarıqlarına, istedad və intellektinə görə irəli çəkməyə, yüksək vəzifələrə təyin etməyə başlamışdı. O dövrdə bir çox rayonlara rəhbərlik qadınlara tapşırılmışdı. Nazir və nazir müavinləri arasında neçə-neçə qadın var idi.

Respublikamızın tarixində ilk dəfə olaraq ali məktəblərə qadın rektorlar təyin edildi. Ümummilli liderimiz hələ o dövrdə öz işində, ictimai fəaliyyətində fərqlənən qadınlara fəxri adların verilməsinə, qadınların mükafatlandırılmasına, orden-medallarla təltif olunmasında səyini əsirgəmədi. Həmin illərdə neçə-neçə qadın "Sosialist Əməyi Qəhrəmanı", "Qəhrəman ana" fəxri adlarını aldı. Bütün bunlar ölkə başçısının xalqına göstərdiyi sonsuz diqqət və qayğının nəticəsi idi.

Ümummilli lider Heydər Əliyev cəmiyyətdə qadının rolunun yüksəldilməsi məsələsini həmişə diqqət mərkəzində saxlamaqla onların dövlət strukturlarında, parlamentdə, siyasi və ictimai təşkilatlarda geniş təmsil olunmalarına çalışmışdır.

Bu gün müstəqil Azərbaycan Respublikasında dövlətçilik ideyaları ətrafında sıx birləşən qadınlarımız dövlət quruculuğunda, ölkənin ictimai-siyasi həyatında fəal iştirak edərək Vətənimizin sosial-iqtisadi, elmi-intellektual potensialının artırılmasına, mədəniyyətimizin inkişafına layiqli töhfələrini verirlər. Onların geniş fəaliyyəti üçün ölkədə hər cür şərait yaradılmışdır. Bu gün çox xoş bir qismətdir ki, onları ürəkdən dəstəkləyən, qayğılarını çəkən, ən əsası isə həqiqi qiymətini verə bilən dövlət başçımız vardır. Yaxşı bilirik ki, hər hansı bir dövrdə qadına münasibət, ilk növbədə, ölkə başçısının qadın siyasətindən asılıdır. Bu sahədə Azərbaycan qadınlarının da bəxti gətirmiş hesab etmək olar. Çünki uzun müddət bizim müstəqil dövlətimizin başında bəşər tarixinin XX əsrdə yetişdirdiyi ən böyük şəxsiyyət, böyük dövlət xadimi, fitri istedada malik siyasi lider, Azərbaycan xalqının əvəzedilməz lideri Heydər Əliyev dururdu.

Ümummilli liderimiz Heydər Əliyev qadınlarla bağlı siyasətin gücləndirilməsini dövlətin mühüm, prioritet vəzifələrindən biri hesab edirdi. Müstəqil Azərbaycanın 1995-ci ilin 12 noyabrında qəbul edilmiş Konstitusiyası qadınların kişilərlə bərabər hüququnu təsdiqləməklə demokratik dövlət quruculuğu prosesində onların fəal iştirakının hüquqi bazasını yaratmışdır. Məlumdur ki, Azərbaycan Respublikası Konstitusiyasının 55-56-cı maddələrində qadınlar da daxil olmaqla, bütün vətəndaşların dövlətin idarə olunmasında iştirak etmək hüququ təsbit edilir. Onlar dövlət orqanlarında qulluq etmək və bütün seçkilərdə qeyd-şərtsiz iştirak etmək hüququna malikdirlər.

Ümummilli lider Heydər Əliyev 1998-ci ildə "Azərbaycanda qadınların rolunun artırılması haqqında" sərəncam imzalamışdır. Bu sərəncamda dövlət strukturları tərəfindən daha yüksək diqqət tələb edən öncül sahələr müəyyənləşdirilmişdir.

Respublikada qadınlara dair dövlət siyasətini daha mütəşəkkil şəkildə həyata keçirmək məqsədilə Ümummilli lider Heydər Əliyev 14 yanvar 1998-ci il tarixli fərmanı ilə Qadın Problemləri üzrə Dövlət Komitəsi yaratdı və Nazirlər Kabinetinə ölkənin siyasi, sosial-iqtisadi, mədəni həyatında qadınların rolunu artırmaq məqsədilə müvafiq təkliflər işləyib hazırlamağı tapşırdı. Bu ulu öndərimizin Azərbaycan qadınlarına göstərdiyi qayğının parlaq nümunəsi idi.

Eyni zamanda, qadın problemlərinin həlli zərurəti 1998-ci il sentyabrın 25-də keçirilmiş ilk qurultayda qeyd olundu.

Heydər Əliyevin "Azərbaycan Respublikasında Dövlət Qadın Siyasətinin həyata keçirilməsi haqqında" 6 mart 2000-ci il tarixli fərmanı respublika qadınlarına 8 Mart bayramı qabağı önəmli hədiyyə olmuşdu. Fərmanda qadınların Nazirlər Kabinetinə ölkədə gedən iqtisadi islahatlar çərçivəsində həyata keçirilən işlərdə gender siyasəti tələblərini rəhbər tutaraq qadınlar üçün kişilərlə bərabər imkanlar yaradılması, qaçqın və məcburi köçkün qadınların məşğulluğunun təmin edilməsi məqsədilə onların münasib işlə təmin edilməsi proqramının hazırlanıb həyata keçirilməsi və sair tapşırılmışdı. Bu, ümummilli liderimizin respublika əhalisinin yarıdan çoxunu təşkil edən qadınlara böyük diqqəti idi.

2000-ci ilin ilk aylarında Azərbaycan Respublikasının Qadın Problemləri üzrə Milli Fəaliyyət Planı (MFP) hazırlanmışdır. Bu plan 1995-ci ildə Azərbaycanın qoşulduğu "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Konvensiya və Pekin Fəaliyyət Platformasında qəbul edilmiş strategiyalar əsasında respublikadakı mövcud vəziyyəti və prioritetləri nəzərə almaqla tərtib edilmişdir. Plan problemlərin beynəlxalq standartlara uyğun şəkildə həllinə yönəldilmiş nazirlik, komitə, qeyri-dövlət və beynəlxalq təşkilatların iştirakı ilə hazırlanmış və bütün problemli sahələrdə gender bərabərliyinə yönəldilmiş dövlət sənədidir. "Azərbaycan Respublikasının Qadın Problemləri üzrə Milli Fəaliyyət Planı" adlanan bu sənədi Azərbaycan Respublikası Nazirlər Kabineti 6 mart 2000-ci il tarixli, 33 saylı qərarı ilə təsdiq etmişdir.

Sənəddə qadın hüquqlarının pozulmasında təqsirkar şəxslərə qarşı qanunla nəzərdə tutulan qaydada məsuliyyətə cəlb etmə də daxil olmaqla, müvafiq ölçülərin götürülməsi nəzərdə tutulurdu.

Milli fəaliyyət planını həyata keçirmək və gender tarazlığına nail olmaq üçün Qadın Problemləri üzrə Dövlət Komitəsinin İdarələrarası Şurası təsis edilmişdir. Şura dövlət idarələrinin nümayəndələri və qadın qeyri-hökumət təşkilatlarından ibarət olan şura koordinasiya funksiyalarını yerinə yetirir. İdarələrarası şuranın üzvləri müntəzəm görüşlər keçirərək, MFP-nin icra vəziyyətini müzakirə edir, maneələri və onların həlli yollarını müəyyən edirlər.

XXI əsrdə beynəlxalq cəmiyyət qarşısında duran ən əsas məsələlərdən biri qadınların tərəqqisidir. Buna görə də Azərbaycanda qadınların durumunun yaxşılaşdırılması məsələsi Dövlət proqramlarında birmənalı şəkildə öz əksini tapdı.

Bu gün Azərbaycan Respublikasının bütün qanunları (Cinayət Məcəlləsi, Mülki Məcəllə, Əmək Məcəlləsi, Ailə Məcəlləsi və s.) və normativ hüquqi aktlarında qadınların bərabər hüquqlarının təsbit edilməsi məsələsi diqqət mərkəzində saxlanılır. Bunlar bütövlükdə Konstitusiya əsasında işlənib hazırlanmışdır. Bu qanunlarda qadınlara qarşı ayrı seçkiliyə yol verən müddəalar yoxdur və insanların fəaliyyəti cinsi mənsubiyyətə görə məhdudlaşdırılmır. Qanunvericilik insan hüquqları və mənafelərini cinsi mənsubiyyətdən asılı olmayaraq qoruyur və əsas beynəlxalq humanitar aktların tələblərinə cavab verir.

Qloballaşma şəraitində dünyaya inteqrasiya edən Azərbaycan 27 beynəlxalq konvensiyaya qoşulub. Onların içərisində "Qadınlara münasibətlərdə ayrı-seçkiliyin hər cür formalarının ləğv edilməsi haqqında" (1979), "Əsirlikdə olan qadınların vətəndaşlığı haqqında" (1952), "Nikaha daxil olmağa razılıq, nikah üçün minimal yaş həddi və nikahların qeydiyyatı haqqında" (1962) beynəlxalq konvensiyalara və digər sənədlərə Azərbaycan Heydər Əliyevin hakimiyyəti dövründə qoşulmuşdur.

Bu gün ulu öndərin siyasətini ləyaqətlə davam etdirən möhtərəm Prezidentimiz İlham Əliyev ölkənin ictima-siyasi həyatında qadınların fəaliyyətinin genişlənməsinə çox böyük diqqət yetirir. Prezident İlham Əliyevin sərəncamları ilə müxtəlif sahələrdə fərqlənmiş qadınlar yüksək mükafatlara və fəxri adlara layiq görülüblər. Qadınların ictimai-siyasi həyata, dövlət qurumlarında rəhbər vəzifələrə daha çox cəlb olunması, uşaqların hüquqlarının təmin edilməsi və onlar üçün zəruri şəraitin yaradılması istiqamətində ciddi işlər görülür. Ümummilli lider Heydər Əliyevin siyasi kursunun davamı olaraq ölkə rəhbəri İlham Əliyev tərəfindən aparılan islahatlar nəticəsində hazırda Azərbaycan Respublikasının Birinci vitse-prezidenti və Milli Məclisin Sədri vəzifələri də xanımlara etibar edilmişdir.

***Şəlalə QULUZADƏ,***
***Ədliyyə Nazirliyi Ədliyyə Akademiyasının baş müəllimi, kiçik ədliyyə müşaviri***